


# UNEC və Çin universitetləri arasında strateji əməkdaşlıq: Pekində mühüm razılaşmalar əldə olunub

**Azərbaycan Dövlət İqtisad Universitetinin (UNEC) rektoru professor Ədalət Muradovun rəhbərlik etdiyi nümayəndə heyətinin Çin Xalq Respublikasına işgüzar səfəri çərçivəsində Pekin şəhərində bir sıra nüfuzlu universitet və elmi-tədqiqat institutlarında görüşlər keçirilib, qarşılıqlı əməkdaşlıqla bağlı mühüm razılaşmalar əldə olunub və sənədlər imzalanıb.**

Universitetin mətbuat xidmətinin məlumatında bildirilir ki, Pekinə səfər çərçivəsində UNEC nümayəndə heyəti ilk olaraq İnkişaf Maliyyəsinin Təşviqi üzrə Çin Assosiasiyasında (CAPDF) olub. Vitse-prezident və Baş katib xanım Guo Mingshenin rəhbərliyi ilə keçirilən görüşdə rektor Ədalət Muradov UNEC-də "İnkişaf İqtisadiyyatı"nın fəaliyyət göstərdiyini, eləcə də UNEC-in ACCA, CFA-dan və maliyyə ixtisasının FİBAA akkreditasiyasından keçdiyini bildirib. O, UNEC və CAPDF arasında birgə tədqiqat mərkəzinin və İnkişaf Maliyyəsi Laboratoriyasının yaradılması təşəbbüsünü irəli sürüb. Görüşdə CAPDF prezidenti, Çin İnkişaf Bankının sabiq rəhbəri Chen Yuanın müəllifi olduğu "Dövlət və Bazarın Uzlaşdırılması: Çin Yanaşması" kitabının Azərbaycan dilinə tərcüməsinə dair razılıq əldə olunub. Xanım Guo Mingshe UNEC-in CAPDF ilə əməkdaşlıq edən ilk xarici universitet olduğunu xüsusi vurğulayıb.

Nümayəndə heyəti daha sonra Çinin iqtisadiyyat və maliyyə sahəsində aparıcı ali təhsil müəssisəsi olan Mərkəzi Maliyyə və İqtisadiyyat Universitetində (CUFE) universitetin prezidenti Ma Haitao ilə görüşüb. Tərəflər ikili diplom proqramları, ortaq EMBA və rəqəmsal iqtisadiyyat proqramı, rəqəmsal və "yaşıl iqtisadiyyat" sahəsində tədqiqatlar, "Bir kəmər, bir yol" təşəbbüsü üzrə Think Tank və beynəlxalq kitab tərcümələri ilə bağlı razılığa gəliblər. Görüş çərçivəsində UNEC və CUFE arasında əməkdaşlıq haqqında memorandum imzalanıb.

Səfərin növbəti günündə UNEC nümayəndə heyəti Azərbaycan dili ilə yanaşı, 101 xarici dilin tədris olunduğu Çin Xarici Dillər Universitetində olub. Universitetin prezidenti Jia Venjian ilə görüşdə ingilis dili tədrisinin metodologiyasının paylaşılması, iqtisadçı müəllimlərə ingilis dilinin bu universitetin tətbiq etdiyi metodologiya əsasında öyrədilməsi, MBA üzrə ikili diplom proqramı, müəllim-tələbə mübadiləsi ilə bağlı məsələlər müzakirə olunub. UNEC nümayəndələri həmin universitetdə Azərbaycan dilini öyrənən çinli tələbələrlə də görüşüblər.

Professor Ədalət Muradov Çin Renmin Universitetinin tanınmış alimi professor Vang Yivei ilə də görüşüb. Görüşdə UNEC-də professor Yiveinin elmi redaktorluğu ilə "Bir kəmər, bir yol" adlı beynəlxalq elmi jurnalın təsis edilməsinə dair razılıq əldə olunub.

Beynəlxalq Biznes və İqtisadiyyat Universitetində (UIBE) prezident Zhao Zhongxiu ilə keçirilən görüşdə UNEC-də birgə "Ticarət və İqtisadiyyat" İnstitutunun, "Rəqəmsal İqtisadiyyat" laboratoriyasının, Azərbaycan-Çin İqtisadi Əlaqələrinin Tədqiqi Mərkəzinin yaradılması, eləcə də tələbə-müəllim mübadiləsi razılaşdırılıb. Həmçinin UİBE-də fəaliyyət göstərən "ÜTT İnstitutu" nümunəsində UNEC-də həmin institutun yaradılmasına qərar verilib.

Səfər çərçivəsində sonuncu görüş isə THE reytinqində Çində lider olan Tsinghua Universitetində olub. Universitetin vitse-prezidenti professor Yang Bin ilə görüşdə UNEC-də MBA üzrə ikili diplom proqramı, ortaq EMBA, qısamüddətli modul proqramları, biznes, mühəndislik, strateji innovasiyalar üzrə forumların təşkili, birgə tədqiqat mərkəzlərinin yaradılması qərara alınıb.

Səfər zamanı UNEC nümayəndə heyəti Tsinghua Universiteti nəzdində fəaliyyət göstərən dünyaca məşhur Schvarzman kolleci ilə də tanış olub.

**Mehparə ƏLİYEVA,**
**"Respublika".**